(Əvvəli 5-ci səhifədə).

larını və məharətlərini nümayiş etdirir, eyni zamanda xalqımızın maddi və mənəvi mədəniyyət nümunələri ilə yaxından tanış olurlar.

Mehriban xanım Əliyevanın təşkilatçılığı ilə ötən il keçirilən X Qəbələ Beynəlxalq Musiqi Festivalı da öz möhtəşəmliyi ilə musiqi dünyasının diqqətini Qəbələyə cəlb etmişdir. Bu möhtəşəm musiqi bayramına Rusiya, İsrail, ABŞ, İsveçrə, Avstriya, Kuba, Macarıstan, Türkiyə, İspaniya, İtaliya, Gürcüstan kimi ölkələrin dünya şöhrətli musiqiçiləri və musiqi kollektivləri qatılmış, həmçinin Azərbaycanın tanınmış musiqiçiləri iştirak etmişlər.

**Hörmətli toplantı iştirakçıları!**

2017-2018-ci tədris ilini rayonumuzun təhsil işçiləri yüksək nəticələrlə başa vurmuşdur.

Belə ki, ötən dərs ilində müvəffəqiyyət faizi 99,9faiz, keyfiyyət göstəricisi isə 66,9faiz olmuşdur.

İlin nəticələrinə görə şəhər 1, 2, 3, 4, 5 nömrəli, Vəndam qəsəbə 1, 2 nömrəli, Nohurqışlaq, Tüntül, Bunud, Həmzəli, Soltannuxa, Hacıalılı, Çarxana, Yemişanlı, Mıxlıqovaq, Mirzəbəyli, Xırxatala, Dizaxlı və Daşca kənd tam orta məktəblərinin göstəriciləri yüksək olmuşdur.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar Təhsil Nazirliyinin keçirdiyi "Ən yaxşı tədimat" müsabiqəsində şəhər 2 nömrəli tam orta məktəbin şagirdi Tünzalə Rzayeva qalib gəlmişdir.

Rayonumuzun müəllimləri respublika əhəmiyyətli müsabiqələrdə fəal iştirak etmiş, təhsildə keyfiyyət ili ilə əlaqədar təşkil olunmuş pedaqoji mühazirələrin rayon mərhələsində Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin riyaziyyat müəllimi Zöhrə Mirzəliyeva birinci, Zalam kənd tam orta məktəbin tarix müəllimi Fərqanə Ağayeva isə ikinci yeri tutmuşlar.

Tüntül kənd tam orta məktəbin direktoru Telman Abdulxalıqov Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə " Tərəqqi " medalı, Kürd kənd tam orta məktəbin müəllimi Ümidvar Həsənov Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Fəxri fərmanı", Nic qəsəbə 5 nömrəli tam orta məktəbin müəllimi Roza Koçari isə "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilmişlər.

XI sinif məzunları üçün keçirilən buraxılış imtahanlarının nəticələri də əvvəlki dərs ili ilə müqayisədə yüksək olmuşdur. Belə ki, 2017-2018-ci dərs ilində bu göstərici 61,3 faiz olmuşdur. Məzunlardan 1164 nəfər tam orta təhsil kursu üzrə attestat almışdır. Şəhər 3 nömrəli tam orta məktəbin məzunu Gülsüm Quliyeva qızıl medala layiq görülmüşdür.

Ötən dərs ilində 50 nəfər məzun 600-dən yuxarı bal toplayaraq respublikanın ali təhsil müəssisələrinə qəbul olunmuşdur.

Bunud kənd tam orta məktəbin məzunu Tural Məmmədov qəbul imtahanında yüksək nəticə əldə edərək Prezident təqaüdünə layiq görülmüşdür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən respublikada IX-XI sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" devizi altında keçirilən maarifləndirici tur-aksiyası çərçivəsində ötən ilin mart və noyabr ayları ərzində ölkənin bir çox şəhər və rayonlarından olan 2000 nəfərə yaxın məktəbli Qəbələyə gəlmiş, rayonumuzla ətraflı tanış edilmişlər. Eləcə də, həmin aksiya çərçivəsində Qəbələ məktəbliləri ölkənin Quba-Qusar-Xaçmaz rayonları ilə tanış olmuşlar.

Rayonumuzda fəaliyyət göstərən 23 məktəbəqədər təhsil müəssisəsinin maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə ötən ilin yerli büdcəsindən ayrılmış vəsaitə uyğun olaraq 12300 manatlıq yumşaq, 12300 manatlıq bərk inventar, 2460 manatlıq digər avadanlıqlar alınaraq həmin müəssisələrə verilmişdir.

Qəbələ rayonunun mədəni-maarif müəssisələri tərəfindən 2018-ci il ərzində bütün tarixi hadisələr, yubileylər və əlamətdar günlər qeyd olunmuş, bir cox maraqlı mədəni-kütləvi, bədii proqramlar hazırlanmışdır.

Bakıda Dənizkənarı Milli Parkda keçirilən ümumrespublika Novruz şənliyində Qəbələ rayonunda istehsal edilən sənaye və kənd təsərrüfatı məhsullarından ibarət stend təşkil olunmuş, kulinariya məhsulları və xalq tətbiqi sənəti nümunələri sərgilənmişdir.

Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyi münasibətilə tədbirlər keçirilmiş, ulu öndərin həyat və fəaliyyətinə həsr edilmiş kompozisiyalar və filmlər nümayiş etdirilmişdir.

Qəbələdə hazırda 19 turizm istirahət obyekti fəaliyyət göstərir. Onların arasında 7 otel beşulduzludur. Rayonumuzdakı otel və mehmanxana tipli istirahət mərkəzlərində bir gündə 2500-dən yuxarı turisti qəbul etmək imkanı vardır. Ötən il bu mərkəzlərə 518.085 nəfər turist gəlmişdir.

Rayon mərkəzi xəstəxanasında 2018-ci il ərzində stasionar xəstələrin sayı 2427 nəfər, cərrahi əməliyyatların sayı 245 olmuşdur.

Bu müddət ərzində ambulator müraciət edən xəstələrin sayı 208130 nəfər təşkil etmişdir.

18 yaşadək uşaqların il boyu aparılan icbari dispanserizasiyasına 25922 nəfər cəlb olunmuşdur.

Məcburi tibbi müayinəyə il ərzində 5126 nəfər obliqat qrup cəlb edilmişdir. Onlardan 2871 nəfəri təhsil, 587 nəfəri səhiyyə işçiləri, 1968 nəfəri isə digər sahələrdə çalışanlardır.

Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırığı əsasında respublikada 18 yaşından yuxarı olan əhalinin ötən il fevralın 15-dən mayın 15-dək kütləvi tibbi müayinəsi keçirilmişdir. Tərtib edilmiş qrafikə əsasən rayon mərkəzi xəstəxanasında və müalicə diaqnostika mərkəzində 66118 nəfər tibbi müayinələrə cəlb edilmişdir. Müayinələrin nəticəsinə əsasən 3603 nəfərə ambulator müalicə təyin olunmuş, 295 nəfər stasionar müalicəyə cəlb edilmiş, 184 nəfər isə Bakı şəhərindəki ixtisaslaşdırılmış klinikalara göndərilmişdir.

Rayon gigiyena və epidemiologiya mərkəzi tərəfindən ilin əvvəlindən yoluxucu xəstəliklərin qarşısının alınması, sanitar profilaktiki tədbirlərin həyata keçirilməsi məqsədi ilə ayrı-ayrı sahələr və yoluxucu xəstəliklər üzrə kompleks tədbirlər həyata keçirilmişdir.

Aparılmış profilaktik tədbirlərin nəticəsində son 10 il ərzində rayonda uşaqlar arasında difteriya, göy öskürək, tetanus, qızılça, parotit, məxmərək kimi idarə oluna bilən yoluxucu xəstəliklər qeydə alınmamışdır.

Hesabat dövrü ərzində Qəbələ Müalicə Diaqnostika Mərkəzinin konsultativ poliklinika şöbəsinə xəstə gəlişlərinin sayı 22033, endoskopiya kabinetində müayinələrin sayı 1287, EKQ müayinələrin sayı 4548, stomatoloji kabinetdə müalicə olunan xəstələrin sayı 620 nəfər, stasionar şöbəyə daxil olan xəstələrin sayı 1170 nəfər, aparılmış cərrahiyyə əməliyyatlarının sayı 1082 olmuşdur. Bu müddət ərzində hemodializ şöbəsində 50 xəstədə 6912 hemodializ seansı aparılmış, şüa diaqnostika şöbəsində USM müayinələrinin sayı 20274, kompüter tomoqrafik müayinələrin sayı 1762, rentgen müayinələrin sayı 17822, fizioterapiya və tibbi bərpa şöbəsində prosedurların sayı 6126 olmuşdur.

Rayon gənclər və idman idarəsi tərəfindən 2018-ci il ərzində 67 tədbir həyata keçirilmişdir. Bunlardan 35 tədbir gənclərlə iş sahəsini, 32 tədbir isə kütləvi bədən tərbiyyəsi və idman sahəsini əhatə edir.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən keçirilən respublika tədbirlərində, yarış və birinciliklərdə Cavid Əzizov və Əhmədiyyə Cəfərov gənclər arasında taekvondo idman növü üzrə keçirilən ölkə birinciliyində III, Hilal Xurşudov Qocyu-ryu Okinava karate-do və Kempo-Ryu kobudo növləri üzrə yeniyetmə, gənclər və böyüklər arasında keçirilən XXI ölkə çempionatı və birinciliyində II, Sənan Şükürov qol güləşi üzrə X ölkə çempionatında I yeri tutmuşlar. İdmançılarımızdan Fuad Musayev qarışıq döyüş növləri üzrə I açıq beynəlxalq profesional turnirdə qalib olmuş, Aydan Hüseynzadə şahmat məsələlərinin əyani həlli üzrə 14-cü beynəlxalq həlletmə yarışında III və şahmat məsələlərinin əyani həlli üzrə 30-cu Azərbaycan çempionatında II, Araz Alməmmədov isə şahmat məsələlərinin əyani həlli üzrə 30-cu Azərbaycan çempionatında III yeri tutmuşdur.

2018-ci ildə Qəbələ Olimpiya İdman Kompleksinin xidmətlərindən 2314 nəfər gün istifadə olunmuşdur ki, bir günlük xidmətlərdən istifadə edənlərin orta sayı 1042 nəfər təşkil etmişdir. Bir günlük xidmətlərdən istifadə edənlərin 482 nəfəri ödənişli əsasla, 560 nəfəri ödənişsiz əsasla kompleksin xidmətlərindən yararlanmışdır.

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi 2018-2019-cu dərs ilindən etibarən lisey statusu ilə fəaliyyət göstərməyə başlamışdır.

Tədrisin müasir tələblər baxımından təşkili edilməsi üçün beynəlxalq təşkilatların nümayəndələri dəfələrlə mərkəzdə olmuşlar. BMT-nin İnkişaf Proqramı (UNDP), "Brtish Council" və Alman Texniki Əməkdaşlıq Cəmiyyətinin (GİZ) dəstəyi ilə il ərzində məktəbdə müəllim və istehsalat təlimi ustaları üçün təlimlər keçirilmişdir. UNDP-nin dəstəyi ilə keçən tədris ilində şagird və müəllimlərin praktik bacarıq və vərdişlərinin inkişaf etdirilməsi üçün qabaqcıl tədris-təcrübə müəssisələrinə bir neçə səfər təşkil edilmişdir. Bir sıra ixtisaslar üzrə tədris Azərbaycan Dövlət Aqrar Universitetinin müəllimləri tərəfindən aparılmışdır.

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində şagirdlər mehmanxanada təsərrüfat işləri üzrə nəzarətçi, kompüter operatoru, aşpaz, ofisiant, barmen, bufetçi, mehmanxana inzibatçısı peşəsinə yiyələnmişlər.

Son zamanlar peşə təhsili sisteminə diqqət getdikcə artmaqdadır və əmək bazarı, iqtisadiyyatın və müasir qloballaşma prosesinin tələbləri bu sahəni inkişaf etdirməyə zərurət yaradır. Hazırda peşə-ixtisas təhsili və təlimi ciddi islahat mərhələsindədir.

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi tərəfindən 2018-ci il ərzində 71 ailəyə səfər edilmiş, 26 maarifləndirici tədbir və təlim keçirilmişdir. Həmin tədbirlərdə 1156 nəfər iştirak etmişdir.

Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəz tərəfindən 2018-ci il ərzində 12 rayonda fəaliyyət göstərən koordinasiya mərkəzləri ilə mütəmadi əlaqələr yaradılmış və vətəndaş cəmiyyətinin inkişafına xidmət edən layihələr həyata keçirilmişdir.

**Hörmətli tədbir iştirakçıları!**

Ölkə Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-cı ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qeyd etdiyi kimi son illər aqrar sahənin inkişafına dövlət qayğısının artması nəticəsində bu sektorda xeyli irəliləyiş nəzərə çarpır. Qeyd etmək lazımdır ki, 2018-ci ildə aqrar sahədə artım 4,6 faiz olmuşdur. Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi nəzərdə tutan Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Sərəncamı xüsusi əhəmiyyət kəsb edir.

Həmin sərəncamın rayonumuzda icrası ilə əlaqədar olaraq ötən il kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına 1531500 manat məbləğində yardımlar hesablanmış və plastik kartlar vasitəsi ilə onlara çatdırılmışdır.

Eləcə də 2018-ci ildə arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə dövlət büdcəsindən subsidiya verilməsinə başlanmışdır. Artıq 4243 arı ailəsi qeydiyyata alınmışdır və bu istiqamətdə işlər davam etdirilir.

Qeyd etmək lazımdır ki, taxılçılıq rayonun aqrar iqtisadiyyatının əsasını təşkil edir. 2018-ci ilin məhsulu üçün 2017-cı ilin payızında 20100 hektar sahədə payızlıq dənli bitkilər əkilmişdir ki, onun da 14600 hektarını buğda, 5500 hektarını isə arpa sahələri təşkil etmişdir. Biçilmiş buğda sahələrinin məhsuldarlığı 32,6 sentner, arpa sahələrinin məhsuldarlığı isə 31 sentner olmaqla hər hektarın orta məhsuldarlığı 32,5 sentner təşkil etmişdir. 2018-ci ilin payızında 2019-cu ilin məhsulu üçün 20190 hektar sahədə taxıl əkilmişdir ki, bunun da 15790 hektarı buğda, 4400 hektarı isə arpa sahələridir.

Hesabat ilində torpaq sahibləri tərəfindən 632 hektar sahədə kartof, 559 hektar sahədə tərəvəz əkilmişdir. Həmin sahələrdən 8215 ton kartof, 5508 ton tərəvəz istehsal edilmişdir.

Qeyd etmək lazımdır ki, son illər rayonun kənd təsərrüfatı bitkilərinin əkin quruluşunda xeyli dəyişiklik aparılıb. Belə ki, heyvandarlığın yemə olan tələbatının ödənməsi üçün taxıl sahələri 1500 hektara qədər azaldılmış və həmin sahələrdə yem bitkiləri əkilmişdir. Yonca, vələmir, yem noxudu və yem çuğunduru əkinlərinə diqqət artırılmışdır.

Aqrar sahədə çalışan fermerlərimiz tərəfindən mütərəqqi metodlar tətbiq edilməklə əkin sahələrinin genişləndirilməsinə deyil, məhsuldarlığın yüksəlməsinə diqqət artırılmışdır.

Rayon üçün meyvəçilik və üzümçülük də önəmli sahələrdən hesab edilir. Hazırda Qəbələdə 6854 hektar bağ sahələri, 621 hektar üzüm plantasiyaları mövcuddur. Həm əhalinin həmin məhsullara olan tələbatının ödənməsi istiqamətində, həm də rayonda həmin sahələrin məhsullarını emal edən sənaye müəssisələrinin xammala olan tələbatının ödənməsi baxımından meyvə və üzüm sahələrinin genişlənməsinə və məhsuldarlığın yüksəldilməsinə diqqət artırılmalıdır.

Ölkə Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi indi kənd təsərrüfatının hər bir sahəsi bizim üçün vacibdir. İxrac yönümlü kənd təsərrüfatı məhsulları istehsalının artırılması diqqət mərkəzində saxlanmalıdır.

Bu baxımdan fındıqçılığın mühüm əhəmiyyət kəsb etməsini nəzərə alaraq rayonumuzda əlavə olaraq 2000 hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulmuşdur. 2016-2017-ci illərdə rayonda 1218 hektar, 2018-ci il ərzində isə 533 hektar olmaqla cəmi 1751 hektar yeni fındıq bağları salınmışdır.

Rayonumuzda barama və tütün istehsalına da başlanılmışdır. Hesabat ilində 101 nəfər kümçü tərəfindən 9110 kq barama istehsal edilmişdir. Barama istehsalının artırılması məqsədi ilə 2016-cı ilin payızından etibarən tut tinglərinin əkilməsinə başlanılmışdır ki, bu da gələcəkdə rayonda barama istehsalının artırılmasına şərait yaradacaqdır.

2018-ci ildə 75 hektar sahədə tütün əkilmişdir. Yüksək keyfiyyətli tütün yetişdirilməsinə nail olmaq üşün tütün sahələrində bütün aqrotexniki tədbirlər vaxtlıvaxtında aparılmışdır. İlin sonuna kimi fermerlərimiz tərəfindən 100681 kq quru tütün təhvil verilmişdir.

Güzəştli qaydalarla 2874 nəfərə 3022 ton gübrə və 239 nəfə-

(Ardı 7-ci səhifədə).